

■ Kəmaləddin Qədim

## APAR, SAXLA DƏRDİMİ

Söylə, səndən gizlədim
Hansı haqla dərdimi;
Dos-doğmaca balandı,
Öp, qucaqla dərdimi.

Sına, gəl, sən də sına,
Mən çox yandım uğruna.
Əzizlə, bas bağrına,
Oxşa, ağla dərdimi.

Aramızdan su keçib,
Günahını yu, keçib.
Boyumu boyu keçib,
Gəl, ölç dağla dərdimi.

Bir az qəlbin yuxalsın,
Bir az qayğın çoxalsın
Bir az da səndə qalsın,
Apar, saxla dərdimi...

## ƏLİMDƏN YAXINI YOX

Səmtim, yönüm hayana,
Yolum hara, bilirəm.
Çiyinlərimdən yaxın
Başım gora, bilirəm.

Yaman çəkir uzaqlar,
Ağlımı alıb gedir.
Günlər, aylar ağzımın
Tamını çalıb gedir.

Gözlərim həsrətlə tən,
Təşnədi ki can yana.
Könlüm dərddən, qübardan,
Dilim duadan yana.

Qoynumda isidirəm,
Dolanıram başına;
Əlimdən yaxını yox
Gözlərimin yaşına...

## BU QAPI QADIN QAPISI

Varmı hər qapının adı,
Varmı hər adın qapısı;
Bu oddu, oda düşülür,
Olmur ki odun qapısı.

Bax bu ləkin, kərdin-qəmin,
Nə əkdin, nə dərdin, qəmin.
Əlindəmi dərdin-qəmin,
Ləzzətin, dadın qapısı?..

Bu da, bu da dərd körpüsü,
Kəsər min cür şərt körpüsü.
Keçilməz namərd körpüsü,
Döyülməz yadın qapısı.

Gör nə boyda hasarı var,
Çarəsizi, naçarı var.
Bir dili, bir açarı var;
Bu qapı qadın qapısı...

## MƏN OLANDAN QURULURAM

Mən elə uşaq qalıram,
Bu ömrə, yaşa çatmıram.
Ögeyi, yadı bir yana,
Dosta, sirdaşa çatmıram...

Məni tez-tez unudurlar,
Halal haqqımı udurlar.
Düzümü daşa tuturlar,
Atılan daşa çatmıram...

Bilən bilir bir həsirəm,
Bir də ki məmmədnəsirəm.
Ha qaçıram, tələsirəm
Gözümdə yaşa çatmıram...

Yerdən-yerə vururuluram,
Bulanıram, duruluram.
Mən olandan quruluram,
Çatmıram, başa çatmıram...

## SƏNDƏN GƏLƏN XƏBƏR KİMİ

Bircə kəlmə gəlirəm de,
Al könlümü nəmər kimi.
Gəl, açmışam qollarımı,
Sar belinə kəmər kimi.

Hədd olmaz ki bu hədd boyda,
Bu ayrılıq, həsrət boyda.
Sərhəd yox bu sərhəd boyda,
Çəpər yox bu çəpər kimi...

Nə qutsaldı adı, gülüm,
Nə şirindi dadı, gülüm.
Bu elə sevdadı, gülüm,
Təpər istər, təpər kimi.

Bu boyda çəkdirməz adam,
Gəl, gözüm yollarda, qadam;
Xəbərmi var bu dünyada
Səndən gələn xəbər kimi...

## BELƏDİ, ÖLÜM DƏ, BELƏ...

Düşürsən günnən-dirrikdən,
Bir az da pul-paran olmur;
Gedən səndən çıxıb gedir,
Gəlib sənə varan olmur.

Təklik boyda kərdin olur,
Nə əkdin, becərdin olur.
Dürlü-dürlü dərdin olur,
Bir əlacın, çaran olmur.

Ayrısı gəlmir üzünnən,
Düzdə qalrsan düzünnən.
Elə salırlar gözünnən
Dünyayla heç aran olmur.

Baxırsan, görürsən elə
Ömrünü vermisən yelə...
Belədi, ölüm də, belə;
Arayan, axtaran olmur...

## DƏRD BİLİR, QƏM BİLİR MƏNİ

Azı özündən az sayır,
Kəmi də kəm bilir məni.
Bütövə bütövəm, bəlli,
Cəm görüb, cəm bilir məni.

Altmışına yetdim, dədə,
Günakaram, haqqam nədə?
Bilməsin, kim bilməsə də
Dərd bilir, qəm bilir məni.

Mən damı, qəbri özünnən,
Hesabı, cəbri özünnən.
Daşlaşmış səbri özünnən
Daha möhkəm bilir məni.

Nə qapılar qıfıllanır,
Nə rəqəmlər sıfırlanır...
Dünya başıma fırlanır,
Baxan da dəm bilir məni...

## DÜŞÜRSƏN, BİR AZ ASTA DÜŞ...

Dünya gidi, ömür fani,
Vaxt qısa, yol uzun, gözəl.
Cavablaya bilmədik heç
Tək bircə sorusun, gözəl.

Üstəydin, gözüm üstdə, düş,
Qalım beləcə yasda, düş.
Düşürsən, bir az asta düş,
Düş, Allah qorusun, gözəl...

Son verirəm, son, ağıma,
Dözəcəm sinə dağıma.
Göz yaşımı yanağıma
Sərirəm, qurusun, gözəl...

## ARAMIZA KİMSƏ GİRMƏSİN

Bu vaxtı, zamanı səninlə elə
Böldüm, aramıza kimsə girməsin.
Öldüm ikimizin arasındaca,
Öldüm, aramıza kimsə girməsin...

## GÖRƏCƏK MƏNİ

Beşi-onu görməsin,
Biri görəcək məni.
Öz ocağı biləcək,
Piri görəcək məni.

Bir gün o qadın da bax,
Mənə haq vercək, haqq.
Hərdən dönüb baxacaq
Geri, görəcək məni.

Baxma mənəm qalan da
O küncdə, bu dalanda.
Göyü çəkib alanda
Yeri görəcək məni.

Lap son günümdə gəlib
Dursun önümdə gəlib.
Gəlsin, ölüm də gəlib
Diri görəcək məni...

## HALAL ELƏMƏ MƏNİ

Görünməz ki gözünə
Solu-sağı aşiqin.
Günahıdı əslində
Yaşamağı aşiqin.

Yaşadım, yaşadanım
Məhəbbətin olmadı.
Dözdüm, sənsizliyin də
Elə çətin olmadı.

Sənsiz ölməyimi də
Xəyal eləmə mənim;
Əcəlimlə ölürəm,
Halal eləmə məni...

## GEC OLSA DA...

Çağırdım, çarə deyilən
Çıxmadı, bəri çıxmadı.
Can çıxdı, cannan bu canın
Bircə dərd-səri çıxmadı...

Kimə bel bağladım, dədə,
İnandım verilən bədə;
Nə qaldı xəbəri, nə də
Öldü xəbəri çıxmadı...

Salsam da meyli bir yana,
Vaxt çəkdi qeyri bir yana.
Gecənin xeyri bir yana,
Gündüzün şəri çıxmadı...

Gec olsa da, gec, məndən də
Keç, İlahi, keç məndən də.
Oğul oldum, heç məndən də
Düşmən çəpəri çıxmadı...

## SƏNDƏ AZIB QALMIŞAM

Vaxtımı, zamanımı
Qururam səndə, qadın.
Elə, dönüb-dolanıb,
Dururam səndə, qadın.

Bu nə sirdi, önündə
Sehirlənib qalmışam.
Sən nə gözəl xəyalsan,
Mən nə gözəl dalmışam...

Sağında, solundayam,
Sağ tükənməz, sol bitməz.
Yolçuyam, yolundayam,
Ömür bitər, yol bitməz.

Bezib, usanmağım yox
Bir gün darıxım gedim.
Səndə azıb qalmışam,
Yol göstər, çıxım gedim...

## HƏR GÜN BİR AZ DA NAZLAN...

Dərdimi söznənmi, saznanmı deyim,
Söznən duyulurmu, saznan olurmu?
Ay mənim ömrümə gecikib gələn,
Olurmu, gecikən yaznan olurmu?

Düşdükcə bərkinə-boşuna sənin,
Dözürəm gəldikcə xoşuna sənin.
Necə az dolanım başına sənin,
Az qurban kəsilim, aznan olurmu?

Qibləm ol, üz tutum, qurulum sənə,
Qaynayım-qarışım, durulum sənə.
Mən hər gün bir az da vurulum sənə,
Sən hər gün bir az da nazlan, olurmu?